

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 22 (23.664)

3 fevral 2021-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymətı 20 qəpik


## Rəsmi xronika



Fevralın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyənin Milliyətçi Hərəkat Partiyasının sədr müavini, Ankaradan deputat Mevlüt Karakayanı qəbul edib.

Milliyətçi Hərəkat Partiyasının sədr müavini Mevlüt Karakaya dövlətimizin başçısının rəhbərliyi ilə Vətən müharibəsində qazanılan Zəfər münasibətilə Prezident İlham Əliyevi təbrik edib.

Dövlətimizin başçısı Vətən müharibəsi dövründə Türkiyənin Azərbaycana göstərdiyi siyasi, mənəvi və diplomatik dəstəyi xatırladıb.

Prezident İlham Əliyev Mevlüt Karakayanın Azərbaycanın işğaldan azad edilən torpaqlarında mədəniyyət və incəsənət təmayüllü məktəbin tikintisi ilə bağlı təşəbbüsünün nəzərə alınacağını, bu məqsədlə müvafiq təlimatlar verəcəyini qeyd edib.

Söhbət zamanı Azərbaycanla Türkiyə arasında qardaşlıq və dostluq münasibətlərinin uğurlu inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

---

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə elm, təhsil, mədəniyyət, gənclər siyasəti və gənclərlə iş, ictimai və sosialyönümlü fəaliyyət, innovasiya və sahibkarlıq sahələrində xüsusi fərqlənən şəxslərə 2021-ci il Gənclər üçün Prezident mükafatları verilmişdir. Prezident mükafatına layiq görülənlər arasında Naxçıvan Muxtar Respublikasından olan gənc də vardır.

**İsmayıllı İsmayıl Cəfər oğluna**

2021-ci il Gənclər üçün Prezident mükafatı verilib.

---

### Dövlət proqramı icra olunur

## Muxtar respublikanın sosial-iqtisadi inkişafı davamlı xarakter daşıyır

***Ümummilli liderimiz Heydər Əliyevin əsasını qoyduğu inkişaf strategiyasının ötən dövrdə muxtar respublikada ardıcıl şəkildə həyata keçirilməsi, bütövlükdə, sosial-iqtisadi inkişafı təmin etmiş, eyni zamanda muxtar respublikada yeni iş yerlərinin açılması, əhalinin gəlirlərinin artırılması, sosial infrastrukturun yaxşılaşdırılması istiqamətində bir sıra uğurlu və məqsədyönlü islahatlar aparılmışdır. Əldə edilən nailiyyətlərin əsasında dayanan mühüm faktorlardan biri də Dövlət proqramlarının uğurla icra edilməsidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 29 mart tarixli Fərmanı ilə təsdiq olunmuş "Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda müəyyən edilən tapşırıqlar muxtar respublika əhalisinin sosial rifahına və iqtisadi sahədə səmərəli təşəbbüskarlığa yönəlmişdir. Proqramın icrasına uyğun olaraq 2020-ci ildə də kompleks tədbirlər həyata keçirilmişdir.***

Kənd təsərrüfatı və sənayenin inkişafı ilə bağlı görülən işlər bir çox sahələrdə daxili tələbatın yerli məhsullar hesabına ödənilməsinə gətirib çıxarmaqla yanaşı, ixracyönümlü məhsul istehsalı üçün də geniş imkanlar yaradır. Bu istiqamətdə tədbirlər Dövlət proqramının icrasına uyğun olaraq 2020-ci ildə də davam etdirilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov yanvarın 13-də Ordubad rayonunun Darkəndində su dəyirmanının, həmin ayın 28-də Babək Rayon Baytarlıq İdarəsinin yeni binasının, aprelin 9-da Naxçıvan şəhərində "Bərəkət Toxumçuluq" Məhdud Məsuliyyətli Cəmiyyəti üçün yeni kompleksin, mayın 22-də Şahbuz rayonunun Badamlı qəsəbəsində "Badamlı" Mineral Sular Zavodunun istifadəyə verilməsi ilə bağlı tədbirlərdə, noyabrın 7-də "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində keçirilən "Ailə təsərrüfatı məhsulları" yarmarkasında iştirak etmişdir. Həmçinin Ali Məclisin Sədri martın 18-də və mayın 21-də proqramın icrasına uyğun olaraq yeni alınmış kənd təsərrüfatı texnikalarına baxmış, həmin ayın 12-də Süni Mayalanma Mərkəzində görülən işlərlə maraqlanmışdır.

2020-ci ildə Dövlət proqramının icrası istiqamətində şoranlaşmış torpaqların meliorativ vəziyyətinin öyrənilməsi məqsədilə 408 torpaq nümunəsində analiz aparılmışdır. Muxtar respublikada həyata keçirilmiş monitorinqlər nəticəsində əkin dövriyyəsindən kənarda qalan sahələr müəyyənləşdirilmiş, 8 min 583 hektar torpaq sahəsinin eksplikasiyası tərtib edilərək planları hazırlanmışdır. Dövlət maliyyə dəstəyi hesabına 1 tingçilik sahəsinin, 3 bağçılıq, 68 heyvandarlıq, 1 quşçuluq təsərrüfatının yaradılması, 1 bağçılıq, 28 heyvandarlıq təsərrüfatının genişləndirilməsi, 1 quşçuluq təsərrüfatının fəaliyyətinin yenidən qurulması, 1 üzüm və 1 bağçılıq təsərrüfatının fəaliyyətinin stimullaşdırılması başa çatdırılmışdır. Aqrar sahədə 3 min 932 sığorta müqaviləsi bağlanmış, "Naxçıvan Aqroservis" Açıq Səhmdar Cəmiyyətində 336 texnika və texnoloji avadanlıq alınaraq ehtiyat yaradılmışdır. Dövlət maliyyə dəstəyi və özəl investisiya qoyuluşu hesabına 4 soyuducu anbarın yaradılması, 1 soyuducu anbarın tutumunun 120 ton genişləndirilməsi, 1 soyuducu anbarda qurğuların quraşdırılması başa çatdırılmış, Naxçıvan şəhərində ümumi tutumu 800, Şərur rayonunda ümumi tutumu 250 ton olan soyuducu anbarların yaradılması davam etdirilmişdir. Ailə təsərrüfatları 7 min 609 tara ilə təmin olunmuş, 48 təsərrüfata 12 min 266 etiketin hazırlanmasında metodik köməklik göstərilmişdir. Ordubad rayonunun Dəstə kəndində Dəstə Un Dəyirmanı və Babək rayonunun Sirab kəndində "İlham" Məhdud Məsuliyyətli Cəmiyyətinin süd emalı sahəsinin fəaliyyətinin bərpası məqsədilə araşdırma aparılmış, Şərur Sənaye Məhəlləsində 3 istehsal korpusunun tikintisi davam etdirilmişdir. Həmçinin "Naxçıvan Duz İstehsalı" Məhdud Məsuliyyətli Cəmiyyəti üçün yeni müəssisənin və Duzdağda yeni şaxtanın tikintisi də davam etdirilməkdədir.

Aqrar sahədə yüksək məhsuldarlığa nail olmaq üçün torpaqların meliorativ vəziyyətinin yaxşılaşdırılması, əkin sahələrinin suvarma suyu ilə vaxtında təmin edilməsi, meliorasiya və irriqasiya sistemlərinin normal istismarı da əsas şərtlərdəndir. Proqramda nəzərdə tutulan meliorasiya və irriqasiya tədbirləri çərçivəsində Ali Məclisin Sədri aprelin 4-də Araz Su Anbarından qidalanan nasos və təzyiqli boru xəttinin, noyabrın 28-də Araz çayında inşa olunacaq nasos stansiyasının layihəsinə, əkin dövriyyəsinə qatılacaq əraziyə baxmış, iyunun 10-da Ordubad rayonunun Biləv kəndində yenidən qurulacaq nasos stansiyasının mövcud vəziyyəti ilə maraqlanmışdır. Həmçinin Ali Məclisin Sədri avqustun 28-də Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə yeni texnikaların təqdim olunması, oktyabrın 9-da Şahbuz rayonunun Sələsüz, Türkeş, Mərəlik, noyabrın 16-da Kəngərli rayonunun Böyükdüz kəndində yeni qapalı suvarma şəbəkələrinin istifadəyə verilməsi ilə bağlı tədbirlərdə iştirak etmişdir. 2020-ci ildə torpaqların su təminatını yaxşılaşdırmaq məqsədilə 32,69 kilometr suvarma boru xətlərində təmir işləri aparılmış, 7,68 kilometr yeni suvarma boru xətləri çəkilmişdir.





Muxtar respublikamızın hərtərəfli inkişafında nəqliyyat sektorunun da xüsusi yeri vardır. Dövlət proqramının icrası istiqamətində Naxçıvanda yol infrastrukturunun təkmilləşdirilməsi diqqətdə saxlanılır, müasir tələblərə cavab verən avtomobil yollarının tikintisi və yenidən qurulması işlərinin həcmi ilbəil artır. Bu tədbirlər çərçivəsində Ali Məclisin Sədri yanvarın 13-də Xanağa-Ağrı-Dizə-Vənənd, mayın 18-də Qarxun-Muğancıq-Mehrab-Məmmədsabir, sentyabrın 15-də Camaldın-Ərəzin, oktyabrın 5-də Nəcəfəlidizə, noyabrın 11-də Qarabürc kənd avtomobil yollarının istifadəyə verilməsi, iyunun 22-də Naxçıvan Şəhər Nəqliyyat İdarəsinə 6 yeni avtobusun təqdim olunması ilə bağlı tədbirlərdə iştirak etmişdir. Həmçinin Ali Məclisin Sədri aprelin 12-də Xanlıqlar-Şərur şəhəri-Yengicə-Şəhriyar-Kürçülü-Kərimbəyli-Dəmirçi kənd avtomobil yolunda aparılan yenidənqurma işləri ilə maraqlanmış, noyabrın 26-da Culfa şəhərində yenidən qurulan 11 yaşayış binasının ətrafındakı yolların təmir olunması ilə bağlı görülən işlərlə tanış olmuşdur. 2020-ci ildə muxtar respublikada 39,42 kilometr uzunluğunda avtomobil yollarının yenidən qurulması, 3,5 kilometr uzunluğunda avtomobil yollarında asfalt-beton işləri başa çatdırılmışdır. Naxçıvan Beynəlxalq Hava Limanında 1 baqaj konveyeri, 1 teleskopik platforma, 1 yanacaqdaşıyan, 1 yanğınsöndürən avtomobil alınıb istifadəyə verilmiş, Xətt Polis Şöbəsinin binası bərpa olunmuş, tikintisi başa çatdırılan yeni uçuş-enmə zolağında quşlardan mühafizə və termal videomüşahidə sistemləri quraşdırılmışdır. "Naxçıvan Dəmir Yolları" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən Culfa Lokomotiv Deposunda lokomotivlər 44 dəfə texniki baxışdan keçirilmiş, 26 dəfə cari təmir işləri aparılmışdır. Naxçıvan stansiyası ərazisində sərnişin vaqonlarının yuyulması üçün uzunluğu 50 poqonmetr olan yolun çəkilişi və hər iki tərəfdən estakada-körpünün quraşdırılması başa çatdırılmışdır. Yararsız vəziyyətdə olan 3 min 708 ağac şpal yeni, 975 ağac şpal yarımyararlı ağac, 218 ağac şpal isə yarımyararlı dəmir-beton şpallarla əvəz olunmuşdur. Rels dövrələrində yarana biləcək nasazlıqların vaxtında qarşısının alınması məqsədilə stansiyalarda 588 mis relsbirləşdiricisi, 35 yoldəyişənin izolyasiyası dəsti, 3 min 500 rezin altlıq, 38 yanlıq, 356 dəmir altlıq dəyişdirilmiş, 39 izolyasiya calaqları yenisi ilə əvəz olunmuşdur. Naxçıvan, Culfa və Nehrəm stansiyalarında əsaslı təmir və yenidənqurma işləri başa çatdırılmışdır.



Enerji təhlükəsizliyi muxtar respublikada daim diqqətdə saxlanılan sahələrdəndir. Çünki bu sahə sosial-iqtisadi inkişafı şərtləndirən əsas amillərdəndir. Bərpa olunan enerji mənbələrindən istifadəyə üstünlük verilməsi isə mövcud olan təbii potensialın dəyərləndirilməsi deməkdir. Dövlət proqramında nəzərdə tutulan enerji təchizatının yaxşılaşdırılması tədbirləri çərçivəsində Ali Məclisin Sədri aprelin 12-də Şərur şəhərində "Çomaxtur" yarımstansiyasının, iyulun 8-də Kəngərli rayonunda yeni Günəş Elektrik Stansiyasının istifadəyə verilməsi ilə bağlı tədbirlərdə iştirak etmiş, həmin gün, eləcə də sentyabrın 3-də Dövlət Energetika Xidmətinə təqdim olunan avtomobil, texnika və avadanlıqlara,

Ardı 2-ci səhifədə

iyunun 10-da Ordubad rayonunun Tivi kəndində yeni su elektrik stansiyasının layihəsinə baxmış, noyabrın 26-da Culfa rayonu ərazisində tikilən 1 meqavatlıq Külək-Günəş Hibrid Elektrik Stansiyasında görülən işlərlə tanış olmuşdur. Muxtar respublikanın şəhər və rayonlarında 2020-ci ildə 87,9 kilometr uzunluğunda yeni elektrik verilişi xətləri çəkilmiş, 307 kilometr uzunluğunda elektrik xətləri təmir edilmiş, 31 transformator yarımstansiyası quraşdırılmış, 22,7 kilometr uzunluğunda hava elektrik verilişi xətləri yeraltı kabel xətləri ilə əvəz olunmuş, 501 smartkarttipli qaz sayğacı quraşdırılmışdır.

İnformasiya-kommunikasiya texnologiyaları inkişaf etmiş iqtisadiyyatın mühüm tərkib hissəsidir. Naxçıvanda müasir dövrün tələblərinə uyğun rabitə əlaqələrinin inkişaf etdirilməsi, dayanıqlı telekommunikasiya infrastrukturunun formalaşdırılması, internetdən istifadənin genişləndirilməsi ilə bağlı ardıcıl tədbirlər həyata keçirilir. Dövlət proqramının icrası məqsədilə rabitə xidmətlərinin yaxşılaşdırılması tədbirləri 2020-ci ildə də davam etdirilmiş, Ali Məclisin Sədri yanvarın 13-də Ordubad rayonunda Dəstə Radio-Televiziya Verici Stansiyasının, mayın 15-də Culfa rayonunda Yeni Nəsil Telekommunikasiya Sistemi və Rabitə Evinin, sentyabrın 18-də "Naxtel" Məhdud Məsuliyyətli Cəmiyyətinin yeni binasının, dekabrın 12-də Kəngərli rayonunda telekommunikasiya sistemi və Rabitə Evinin istifadəyə verilməsi ilə bağlı tədbirlərdə iştirak etmişdir. Bu dövrdə muxtar respublikamızda 35 min 61 metr, o cümlədən "Evədək optika" layihəsi çərçivəsində 49 fərdi mənzilə fiber-optik kabel xətti çəkilmiş, 8 min 761 abonent internetlə təmin olunmuşdur.

Proqramda nəzərdə tutulan və kommunal xidmətlərin səviyyəsinin daha da yaxşılaşdırılmasına xidmət edən tədbirlər mütərəqqi əhəmiyyətə malikdir. Bu sahədə fəaliyyət səmərəliliyinə və yüksək xidmət səviyyəsinə nail olmaq üçün genişmiqyaslı tədbirlər 2020-ci ildə də davam etdirilmişdir. Ali Məclisin Sədri aprelin 23-də Sədərək, mayın 27-də Kəngərli, oktyabrın 29-da Ordubad rayonlarında yeni içməli su təchizatı və kanalizasiya sistemlərinin qurulması layihələrinə baxmış, iyulun 24-də Şərur Şəhər Sutəmizləyici Qurğular Kompleksinin və Cəlilkənddə içməli su şəbəkəsinin açılışı ilə bağlı tədbirlərdə iştirak etmişdir. Dövlət proqramının icrasına uyğun olaraq 2020-ci ildə 170,97 kilometr içməli su, 81,32 kilometr kanalizasiya xəttinin çəkilməsi təmin olunmuşdur.

Dövlət proqramında nəzərdə tutulan tədbirlərin uğurla yerinə yetirilməsi iqtisadi inkişafı təmin etməklə yanaşı, yeni infrastrukturun





qurulmasına, eləcə də təmir, tikinti və yenidənqurma işlərinin sürətlənməsinə zəmin yaradır. Muxtar respublikada aparılan abadlıq-quruculuq işləri şəhər, kənd və qəsəbələrin simasına əlavə yaraşıq gətirir. Dövlət proqramında müəyyən edilən mənzil təsərrüfatı və abadlıq-quruculuq tədbirləri 2020-ci ildə də davam etdirilmiş, Ali Məclisin Sədri yanvarın 8-də "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının 3-cü, avqustun 22-də 8-ci Sərhəd Zastavasında, oktyabrın 16-da Daxili Qoşunların "Naxçıvan" Əlahiddə Əməliyyat Briqadasının Şərur Əməliyyat Taborunda, noyabrın 26-da Culfa Rayon Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsində xidmət və yaşayış, dekabrın 17-də Babək şəhərində bazar, dekabrın 29-da Naxçıvan şəhərində "Gənclər şəhərciyi" yaşayış komplekslərinin istifadəyə verilməsi ilə bağlı tədbirlərdə iştirak etmiş, həmin gün yeni tikiləcək "Gənclər Yaşayış Kompleksi"nin təməlini atmışdır. Həmçinin Ali Məclisin Sədri aprelin 12-də Şərur şəhərində Mərasim Evi və dini icma üçün iş otaqlarının, mayın 15-də Culfa şəhərində əsaslı yenidənqurma işlərindən sonra Heydər Əliyev prospektinin, həmin ayın 27-də "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyətinin Kəngərli, iyulun 2-də Şərur rayon filiallarının, oktyabrın 29-da Ordubad şəhərində yeni yaşayış binasının istifadəyə verilməsi və şəhidlərin xatirəsinə yaradılan Bayraq Meydanının açılışı ilə bağlı tədbirlərdə iştirak etmişdir. Ali Məclisin Sədri yanvarın 13-də Ordubad rayonunun Vənənd, mayın 18-də Şərur rayonunun Muğancıq-Mehrab, Məmmədsabir, noyabrın 11-də Qarabürc, sentyabrın 15-də Culfa rayonunun Caaldın, oktyabrın 5-də Babək rayonunun Nəcəfəlidizə kəndlərində xidmət və kənd mərkəzlərinin açılışını etmiş, aprelin 12-də Şərur şəhərində inşa olunacaq avtovağzalın layihəsinə və tikinti aparılacaq əraziyə baxmış, həmin ayın 23-də Sədərək rayonunun Heydərabad qəsəbəsində əsgəri-yaşayış kompleksində, noyabrın 26-da Culfa şəhərində yerləşən 11 yaşayış binasında yenidənqurma işləri ilə tanış olmuşdur.

Dövlət proqramında sağlamlıq imkanlarının məhdudluğu müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə fərdi mənzillərin tikintisinin davam etdirilməsi nəzərdə tutulmuşdur. Bu istiqamətdə həyata keçirilən tədbirlər nəticəsində Ali Məclis Sədrinin 2020-ci ilin 14 yanvar, 14 mart, 15 iyun və 8 oktyabr tarixlərində, ümumilikdə, 2 şəhid ailəsinə, Azərbaycan Respublikasının ərazi bütövlüyünün və müstəqilliyinin müdafiəsi uğrunda, eləcə də hərbi xidmət vəzifələrinin icrası zamanı sağlamlıq imkanları məhdudlaşmış 8 nəfərə fərdi yaşayış evləri və mənzillərin orderini təqdim etməsi muxtar respublikada insan amilinə verilən dəyərin mühüm göstəricisidir.

Naxçıvanda tikinti-quraşdırma işlərinin mühüm istiqamətlərindən birini sosial infrastrukturun yaxşılaşdırılması tədbirləri təşkil edir. Təhsil və səhiyyə müəssisələrinin əsaslı təmiri və yenidən qurulması muxtar respublika üçün sosial əhəmiyyətli ənənəyə çevrilmişdir. Ali Məclisin Sədri yanvarın 13-də Ordubad rayonunun Vənənd, mayın 18-də Şərur rayonunun Muğancıq-Mehrab, noyabrın 11-də Qarabürc, sentyabrın 15-də Culfa rayonunun Camaldın, oktyabrın 5-də Babək rayonunun Nəcəfəlidizə kəndlərində yeni məktəb binalarının, noyabrın 26-da Culfa Rayon Təhsil Şöbəsinin yeni binasının açılışında iştirak etmişdir. Həmçinin Məmmədsabir, Camaldın, Vənənd kəndlərində həkim ambulatoriyaları, Vənənd kənd Uşaq Musiqi Məktəbi istifadəyə verilmişdir. Ali Məclisin Sədri iyulun 2-də Şərur şəhərində Təqaüdçülər Klubunun, oktyabrın 29-da Ordubad Rayon Gigiyena və Epidemiologiya Şöbəsinin, noyabrın 20-də Duzdağ Fizioterapiya Mərkəzinin inzibati binasının istifadəyə verilməsi ilə bağlı tədbirlərdə iştirak etmiş, sentyabrın 25-də Naxçıvan Qarnizonu Mərkəzi Hospitalının yeni kompleksinin inşası, mayın 27-də Şahtaxtı kəndindəki Şərq hamamında, aprelin 15-də Yusif Küseyir oğlu türbəsində aparılan bərpa işləri ilə maraqlanmış, həmin gün Ordubad şəhərindəki qədim Cümə məscidinin bərpa layihəsinə baxmışdır. Bu istiqamətdə görülən işlər, onu deməyə əsas verir ki, Naxçıvanda sosial infrastrukturun yaxşılaşdırılması çərçivəsində həyata keçirilən tədbirlər əsas etibarilə insan amilinə xidmət edir.

Naxçıvan böyük turizm potensialına malik diyardır. Dövlət proqramında nəzərdə tutulan abadlıq-quruculuq işləri turizmin inkişafına da müsbət təsir göstərir. Bu tədbirlər çərçivəsində Ali Məclis Sədrinin iştirakı ilə mayın 5-də Naxçıvan şəhər buzxanasının, həmin ayın 10-da Sahil Parkının istifadəyə verilməsi muxtar respublikamızda turizm infrastrukturunun beynəlxalq tələblər səviyyəsində qurulmasının göstəricisidir. Naxçıvan şəhər buzxanasında "Naxçıvan Mətbəxi" Kulinariya Mərkəzi üçün iş şəraitinin yaradılması isə bu tarixi məkanda milli dəyərlərimizin qorunmasına, eyni zamanda təbliğinə xidmət edir, buraya gələn qonaqlarda tarixi abidəmiz fonunda zəngin milli mətbəximizlə xoş və yaddaqalan təəssürat yaradır.

2020-ci ildə sahibkarlığın inkişafı diqqət mərkəzində olmuş, Rusiya Federasiyası, Birləşmiş Ərəb Əmirlikləri, İtaliya və Türkiyə kimi ölkələrdə keçirilmiş 7-si onlayn olmaqla, 10 beynəlxalq tədbirdə 14 sahibkarlıq subyektinin 27 nümayəndəsinin iştirakı təmin edilmişdir. Eyni zamanda muxtar respublikada fəaliyyət göstərən banklar tərəfindən kiçik və orta sahibkarlara 7 milyon 923 min 750 manat həcmində kreditlər verilmişdir.

Naxçıvan şəhərində 57 nəqliyyat infrastrukturu obyektinə 663 ünvan lövhəsi, 3 min 622 giriş nömrə nişanı quraşdırılmışdır. Torpaqların kadastr uçotu informasiya sistemi ilə bağlı Şərur, Sədərək, Kəngərli və Şahbuz rayonlarının bütün bələdiyyələri üzrə reyestr məlumatları yeni xəritələrin üzərinə köçürülmüşdür.

Sədərək gömrük sərhəd-buraxılış məntəqəsi üçün beynəlxalq standartlara cavab verən kompleksin tikinti işləri həyata keçirilmiş, 12 köşk, 36 kamera və 12 şlaqbaumdan ibarət "Sərhədkeçmə vaxtının ölçülməsi" sistemi quraşdırılmışdır. Sədərək Gömrük İdarəsi 4 qapıtipli maqnoskaner, 15 əl radiostansiyası ilə təmin edilmiş, idarədə 6 maşınaltı izləmə sistemi, 60 tonluq 2 tərəzi, 26 istiqamətverici monitor, 7 elektron bəyanetmə köşkü, 5 məlumat lövhəsi quraşdırılmışdır. Dövlət əmlakının özəlləşdirilməsindən 265 min 958,25 manat vəsait daxil olmuş, torpaq və qeyri-yaşayış sahələri üzrə bağlanmış icarə müqavilələrindən 162 min 237 manat vəsaitin dövlət büdcəsinə ödənilməsi təmin edilmişdir. Culfa və Sədərək gömrük idarələrində minik avtonəqliyyat vasitələrinin müayinəsi üçün nəzərdə tutulan "Haimann Smiths" şirkətinin istehsal etdiyi "CİB-300" markalı stasionar rentgen yoxlama-baxış qurğusu, stasionartipli dezinfeksiya baryerləri, Sədərək, Şahtaxtı və Naxçıvan Hava Nəqliyyatında Gömrük idarələrində, ümumilikdə, 5 məsafədən istilikölçən termal kamera quraşdırılmışdır. Gömrük sərhəd-buraxılış məntəqələrində yüksək görüntü keyfiyyətinə malik 106 əlavə kamera quraşdırılaraq müşahidə sistemi daha da təkmilləşdirilmişdir.

*"Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda qeyd olunduğu kimi, sosial-iqtisadi inkişaf sahəsində qəbul edilmiş Dövlət proqramlarının uğurla icrası muxtar respublika iqtisadiyyatının daha da güclənməsini, makroiqtisadi göstəricilərin bütün parametrləri üzrə inkişaf dinamikasının qorunub saxlanmasını təmin etmişdir. Cari ildə Dövlət proqramının icrası muxtar respublika iqtisadiyyatının yeni mərhələdə daha da inkişafına səbəb olacaqdır.*

**"Şərq qapısı"**

## Türkiyənin ali təhsil müəssisələri ilə əlaqələr daha da genişlənir



***Türkiyə Böyük Millət Məclisinin Xaricdəki Türklər və Əqrəba İcmaları İdarəsinin koordinatorları Engin Vural və Sevilay Yıldırım Naxçıvan Dövlət Universitetində oldular.***

Universitetin maddi-texniki bazası, mövcud fakültələri haqda məlumatlandırılan qonaqlar ali təhsil ocağının Memarlıq və mühəndislik fakültəsində Dəmir yolu nəqliyyatının avtomatlaşdırılması laboratoriyasında olub, konservatoriyada onlar üçün təşkil edilən konsert proqramını izləyiblər. Tibb fakültəsində olan qonaqlara məlumat verilib ki, 2019-cu ildə yenidən qurularaq istifadəyə verilən fakültə yüksək maddi-texniki baza ilə zənginləşdirilib. Tələbələrə bu ixtisas üzrə həm nəzəri, həm də təcrübi dərslərin keçilməsi üçün burada hər cür şərait mövcuddur. Bunun nəticəsidir ki, ötən il fakültəyə qəbul olan 336 xarici tələbədən 260-ı Türkiyə Respublikasındandır.

Görüşdə universitetin rektoru, dosent Elbrus İsayev qonaqları salamlayaraq ali təhsil ocağının fəaliyyəti, buradakı mövcud təhsil və tədris prosesi, elmi nailiyyətləri haqqında məlumat verib. Universitetin yaranma tarixi, fəaliyyət istiqamətləri və beynəlxalq əlaqələrindən danışan rektor təhsil sahəsində həyata keçirilən layihələrdən, ali təhsilin strateji istiqamətlərində qəbul olunan Dövlət proqramlarının icrası barədə məlumat verib. Bildirib ki, rəhbərlik etdiyi ali təhsil ocağının qardaş ölkənin 20-yə yaxın aparıcı ali təhsil müəssisəsi ilə əməkdaşlıq əlaqəsi var.

Xaricdəki Türklər və Əqrəba İcmaları İdarəsinin koordinatoru Engin Vural qonaqpərvərliyə görə minnətdarlıq edib. Koordinatoru olduğu qurumun həyata keçirdiyi "Türkiyə təqaüdləri" proqramı haqqında məlumat verən qonaq qeyd edib ki, bu, tələbə və tədqiqatçılara Türkiyənin ən prestijli universitetlərində təqaüd təhsili və tədqiqat imkanı verən hərtərəfli və dövlət tərəfindən dəstəklənən rəqabətli bir təqaüd proqramıdır. Bildirilib ki, proqrama bakalavr, magistr, doktorantura və tədqiqat proqramları üzrə hər bir şəxs internet üzərindən onlayn olaraq 8 dildə müraciət edə bilər.

Xaricdəki Türklər və Əqrəba İcmaları İdarəsinin digər koordinatoru Sevilay Yıldırım vurğulayıb ki, təqaüd proqramları ölkələrarası işbirliyini və cəmiyyətlər arasındakı ortaq anlayışı gücləndirmək məqsədini qarşısına qoymuş gələcəyin liderlərini yetişdirməkdir. Bu proqramlar ali təhsilin hər səviyyəsində ixtisaslı beynəlxalq səviyyədə tələbə hazırlamaq deyil, həmçinin bu tələbələrin universitetə yerləşdirmə proseslərini də əhatə edir. Diqqətə çatdırılıb ki, dünya miqyasında bu təqaüd proqramlarından faydalanan 100-ə yaxın ölkədən 150 mindən çox məzun olub.

Sonda bu səfərin elm və təhsil sahəsində əməkdaşlığa yeni təkan verəcəyi diqqətə çatdırılıb.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

## Qarnizon Qoşunlarında yeni tədris ilinə start verilib



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təsdiq etdiyi "Naxçıvan Qarnizonu Qoşunlarının 2021-ci tədris ilinə uzlaşma planı"na əsasən Qarnizon Qoşunlarında yeni tədris ilinə start verilib.

Yeni tədris ilinin ilk həftəsi ənənəvi olaraq birləşmə və hərbi hissələrdə müxtəlif dərəcəli döyüşə hazırolma vəziyyətinə gətirilmə zamanı şəxsi heyət tərəfindən vəzifələrin öyrənilməsi, bölmələrin tapşırıqlarının dəqiqləşdirilməsi və müxtəlif variantlar üzrə məşq etdirilməsi ilə başlayıb.

Naxçıvan Qarnizonunda qoşunların və qərargahların birgə fəaliyyətinin əlaqələndirilməsi məqsədilə yaradılmış koordinasiya qrupu xəbərdaretmə və məlumat mübadiləsində çevikliyin təmin edilməsi, daxil olmuş əməliyyat məlumatlarının qəbulu, təhlili, operativ analizi və hər bir siqnal üzrə yerinə yetirilən fəaliyyətlərin alqoritminin müzakirəsi və təkmilləşdirilməsi məqsədilə qoşunlarda olub. Birləşmə və hissələrin fəaliyyətinə nəzarət edən koordinasiya qrupu mövcud problemləri qeyd edib, onların qısa müddətdə aradan qaldırılması üçün birləşmə və hərbi hissə komandirləri ilə tapşırıqlar yerindəcə dəqiqləşdirilib.

Qarnizonun döyüş hesabatına uyğun olaraq qoşunların xəbərdar edilməsi, həyəcan siqnalı ilə qaldırılması, cəmləşmə rayonlarına çıxarılması, gizli idarə olunması və qəfil ortaya çıxan tapşırıqların icrası üzrə məşqlər və təlimlər müxtəlif səviyyələrdə növbəti bir neçə gündə də davam edəcək.

**Nəriman NƏCƏFOV**

# Gənclər Günü qeyd olunub



*2 fevral – Gənclər Günü münasibətilə Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Gənclər Fondu və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin təşkilatçılığı ilə Naxçıvan şəhərindəki Gənclər Mərkəzində tədbir keçirilib.*

Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman naziri, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin sədri Azad Cabbarov açaraq ölkəmizdə və eləcə də muxtar respublikamızda uğurla həyata keçirilən gənclər siyasətinin, gənclərə göstərilən diqqət və qayğının real təzahürlərindən danışıb. Bildirilib ki, bu gün gənclərimiz cəmiyyətimizin inkişafında fəal sosial təbəqəyə çevrilib, ölkə müstəqilliyinin möhkəmləndirilməsinin zəruri və əvəzedilməz üzvləri olaraq torpaqlarımızın tarixi düşmənlərimizdən azad olunmasında, beynəlxalq miqyaslı bir çox yarışlarda qalib gələrək himnimizin oxunmasında və bayrağımızın yüksəklərə qaldırılmasında, respublikamızın hərtərəfli inkişafının təmin edən bütün sahələrin yüksəlişində yaxından iştirak edir, ölkəmizi müxtəlif beynəlxalq tribunalarda, mühüm yarışlarda, elmi auditoriyalarda layiqincə təmsil edirlər. Dövlətimiz tərəfindən gənclərə göstərilən diqqət və qayğının ən bariz nümunələrindən biri də hər il ölkəmizdə 2 fevral – Gənclər Gününün qeyd olunmasıdır. Biz əminik ki, muxtar respublika gəncləri bundan sonrakı dövrdə də bilik, bacarıq və istedadları ilə hər zaman fərqlənəcək, ölkəmizin ictimai həyatında yaxından iştirak edərək onun inkişafına öz töhfələrini verəcək, onlara göstərilən etimadı doğruldacaqlar.

Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun icraçı direktoru, millət vəkili Cəbi Quliyev əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan dövlət gənclər siyasətinin uğurlarından danışıb. Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov tərəfindən gənclərin mükəmməl təhsil alması, mənəvi-psixoloji və fiziki cəhətdən sağlam böyüməsi, elmi-texniki yeniliklərə mükəmməl yiyələnməsi, idmanın bir çox növü ilə məşğul olmaları, dövlət qulluğu işlərində onların potensialından səmərəli istifadə edilməsi və bu istiqamətdə aparılan digər tədbirlər muxtar respublikada dövlət gənclər siyasətinin əsasını təşkil edir. Bu diqqət və qayğının nəticəsidir ki, son illər gənclərimiz muxtar respublikamızın ictimai-siyasi, iqtisadi və mədəni həyatında fəal iştirak edir, mədəniyyət, elm və idman sahələrində böyük inamla irəliləyir, zəngin mədəni irsimizin qorunub saxlanılması və inkişaf etdirilməsi yolunda mühüm addımlar atır, milli dəyərlərimizin yaşadılması və təbliği üçün əllərindən gələni əsirgəmirlər.

Sonra muxtar respublikanın ictimai həyatında və yaradıcılıq sahəsində fərqlənən istedadlı yeniyetmə və gənclər müxtəlif nominasiyalar üzrə diplom və hədiyyələrlə mükafatlandırılıb.

* * *

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin və Gənclər Fondunun birgə təşkilatçılığı, sosial könüllülərin iştirakı ilə sağlamlıq imkanları məhdud gənclər üçün tədbir təşkil olunub. Tədbirdə çıxış edən Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Nicat Babayev muxtar respublikada sağlamlıq imkanları məhdud gənclərə yaradılan şəraitdən danışıb. Qeyd edilib ki, bu gün fiziki imkanlarının məhdudluğuna baxmayaraq, həyatın müxtəlif sahələrində ciddi uğurlar əldə etmiş gənclər görürük. Dövlət tərəfindən belə istedada malik gənclər hərtərəfli qayğı ilə əhatə olunur, onların yaradıcılıq əzminin stimullaşdırılması məqsədilə zəruri işlər həyata keçirilir. Son dövrlərdə sosial könüllülərin iştirakı ilə müvafiq kateqoriyadan olan gənclər tərəfindən hazırlanmış əl işlərinin sərgi-satışlarının



təşkil olunması, onların iştirakı ilə sosial videoçarxların hazırlanması bu baxımdan uğurlu tədbirlər sırasındadır.

Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev muxtar respublikada gənclərin iştirakı ilə həyata keçirilən layihələrdən danışıb. Vurğulanıb ki, gənclərlə iş sahəsində görülən tədbirlərin nəticəsində sağlam və vətənpərvər ruhda yetişən gənclər milli-mənəvi dəyərlərin qorunmasında, elmi, intellektual potensialın reallaşdırılmasında əhəmiyyətli rol oynamağa, dövlət institutlarında təmsil olunmağa başlayıb, dövlət müstəqilliyinin keşiyində duran vahid qüvvə kimi formalaşıblar.

Gənclər adından çıxış edən Nail Hacıyev, sosial könüllü Gülcan Əlizadə göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

Sonda fərqlənən sağlamlıq imkanları məhdud gənclərə hədiyyələr təqdim olunub.

* * *

Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzində keçirilən tədbirdə əvvəlcə Vətənimizin azadlığı və ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin əziz xatirəsi yad edilib. Əlahiddə Ümumqoşun Ordunun zabiti, polkovnik-leytenant Fariz Sərxanov, Vətən müharibəsinin iştirakçısı, əsgər Coşqun Məhərrəmov və digər çıxış edənlər əsgərlərimizin timsalında bütün gəncləri əlamətdar gün münasibətilə təbrik edərək xidmətlərində uğurlar arzulayıblar.

Bildirilib ki, ulu öndər Heydər Əliyevin əsasını qoyduğu uğurlu gənclər siyasətinin davam etdirilməsi nəticəsində Azərbaycan gəncliyi ölkəmizin bu günü və gələcəyi haqqında düşünür, əməli fəaliyyətində vətəndaşlıq hisslərinə malik olduğunu nümayiş etdirir. 44 günlük Vətən müharibəsində gənclərimizin göstərdiyi şücaət bunu bir daha sübut edir.

Tədbirdə vətənpərvər ruhlu gənclərin şücaətindən və ordumuzun qüdrətindən bəhs edən videoçarxlar nümayiş etdirilib.

* * *

Naxçıvan Dövlət Universitetində 2 fevral – Gənclər Gününə həsr olunmuş "Gənclərlə iş sahəsində gənclər təşkilatlarının rolu" adlı tədbiri giriş sözü ilə ali təhsil ocağının rektoru, dosent Elbrus İsayev açaraq tələbə-gənclərin istedadlarının üzə çıxarılmasına göstərilən dövlət qayğısından danışıb. Qeyd edilib ki, əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasətinin Prezident cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün Azərbaycanda, eləcə də muxtar respublikamızda gənclərə yüksək diqqət və qayğı göstərilir.

Universitetin Tədris və tərbiyə işləri üzrə prorektoru Rafiq Rəhimov çıxışında qeyd edib ki, muxtar respublikamızda gənclərin yaradıcılıq axtarışlarının stimullaşdırılmasına, milli ruhda tərbiyəsinə, onların sosial müdafiəsinin və məşğulluğunun təmin edilməsinə ciddi önəm verilir.

Tədbirdə universitetin Tələbə-Gənclər Təşkilatının sədri Əziz Qasımov, təşkilat nəzdində İntellektual oyunlar klubunun sədri Fərid Hacıyev, Debat klubunun sədri Atilla Əsgərli, Kitab klubunun sədri Elmar İsgəndərov da çıxış ediblər.

* * *

"Naxçıvan" Universitetində "Gənclər gələcəyimizdir" mövzusunda keçirilən tədbirdə əvvəlcə ali təhsil ocağının şəhid olan ilk məzunu Orxan Paşazadənin, eləcə də ölkəmizin ərazi bütövlüyünün bərpası uğrunda aparılan döyüşlərdə şəhid olmuş digər qəhrəman Vətən oğullarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Tədbiri giriş sözü ilə universitetin rektoru Nurlana Əliyeva açaraq ölkəmizdə, o cümlədən muxtar respublikada həyata keçirilən gənclər siyasətindən, bu sahədə əldə olunan nailiyyətlərdən danışıb.

Tədbirdə universitetin Tələbə-Gənclər Təşkilatının sədri Zakir Məmmədov, tələbələrdən Məşdin Ələkbərov, Coşqun Hüseynov, Alsu Məmmədli çıxış ediblər.

Naxçıvan Müəllimlər İnstitutunda 2 fevral – Gənclər Günü münasibətilə keçirilən tədbirdə ali təhsil ocağının rektoru Azad Novruzov çıxış edərək bildirib ki, əsası ulu öndər tərəfindən qoyulan dövlət gənclər siyasətinin uğurla davam etdirilməsi nəticəsində ölkəmizdə idarəetmə bacarığı ilə seçilən intellektual, dünyagörüşlü yeni nəsil yetişib. Muxtar respublika gəncliyi də hər zaman ölkəmizin inkişafında layiqli mövqe tutub, gənclərimiz dövlətçiliyə bağlı, intellektual, yüksək dünyagörüşlü bir qüvvə kimi formalaşıblar.

Sonra institutun Tələbə-Gənclər Təşkilatı, Tələbə Həmkarlar Təşkilatı və Tələbə Elmi Cəmiyyəti sədrlərinin çıxışları dinlənilib, 2020-ci il ərzindəki fəaliyyətlərinə görə fərqlənən bir qrup gənc müəllim və tələbə diplom, fəxri fərmanlarla təltif olunublar.

**Xəbərlər şöbəsi**

*Ölkəmizdə, eləcə də muxtar respublikamızda təhsilin müasir tələblər səviyyəsində inkişafı prioritet istiqamət təşkil edir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı nəticəsində müasir təhsil infrastrukturu yaradılıb. Son 20 ildən artıq bir dövrdə muxtar respublikamızda aparılan quruculuq tədbirləri içərisində 200-dən çox təhsil müəssisəsi üçün binalar tikilərək və ya əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilib. Bu gün muxtar diyarımızda təhsil sahəsində qazanılmış uğurlu nailiyyətlər, müəllim əməyinə verilən yüksək dəyər, təhsil müəssisələrində yaradılan müasir şərait müəllim əməyinin bəhrələrini daha da artırır.*

**Təhsil millətin gələcəyidir**

# Müəllim əməyi fədakarlıq nümunəsidir

## *İşə qəbul prosesinin şəffaflığı müəllim peşəsinin nüfuzunun artması ilə nəticələnir*



Müəllim nüfuzunun artırılması, təhsil işçilərinin fəaliyyətinin stimullaşdırılması, sosial müdafiəsinin gücləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər davamlı xarakter alıb. Qeyd edək ki, bu günə qədər muxtar respublikanın təhsil müəssisələrində çalışan müəllimlərdən 117-si Azərbaycan Respublikasının, 189-u isə Naxçıvan Muxtar Respublikasının "Əməkdar müəllimi" fəxri adlarına layiq görülmüş,108-i isə "Tərəqqi" medalı ilə təltif olunmuşdur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2007-ci il 4 sentyabr tarixli Sərəncamına əsasən məktəblərin və pedaqoji kadrların fəaliyyətinin qiymətləndirilməsi məqsədilə hər il "Ən yaxşı ümumtəhsil məktəbi" və "Ən yaxşı müəllim" müsabiqələri keçirilir. 2013-cü ildə muxtar respublikamızdan daha 5 müəllim "Ən yaxşı müəllim" adına layiq görülüb, bununla da mükafatlandırılan müəllimlərin sayı 30-a çatmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri müəllimlər qarşısında mühüm vəzifələr qoyaraq demişdir: ***"Bu gün qarşımızda bir vəzifə durur: mənəviyyatca təmiz, savadlı və milli gənclər yetişdirməliyik. Muxtar respublikada mövcud təhsil infrastrukturu bu vəzifənin icrası üçün bütün əsasları yaradır. Lakin müəllim əməyi olmadan, peşəkar təhsil kollektivi formalaşdırılmadan yaradılan təhsil infrastrukturu faydalı iş müstəvisinə keçirilə bilməz".***

Bəli, peşəkar təhsil kollektivi formalaşdırılmasa, uğurlu təhsil nəticələrindən danışa bilmərik. Qürur hissi ilə deyə bilərik ki, müəllimlərin peşəkarlıq səviyyəsinin artırılması üçün təlimlər, konfranslar keçirilir, müəllimlərin işə qəbulu prosesində obyektivlik təmin edilir. Belə ki, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2018-ci il 14 aprel tarixli Qərarına uyğun olaraq pedaqoji kadrların müsabiqə ilə işə qəbulu aparılır. Adıçəkilən qərar isə gənc kadrların işlə, ümumtəhsil müəssisələrinin bilikli müəllimlərlə təmin olunmasına şərait yaradır. Bundan başqa, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin "Naxçıvan Muxtar Respublikasının dövlət ümumi təhsil müəssisələrində işləyən təhsilverənlərin sertifikatlaşdırma Qaydası"nın təsdiq edilməsi haqqında Qərar qəbul edilmişdir. Müvafiq qərara uyğun olaraq yanvarın 14-dən Naxçıvan Muxtar Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən dövlət ümumtəhsil müəssisələrində işləyən təhsilverənlərin sertifikatlaşdırılması üçün test imtahanlarının keçirilməsinə başlanılıb. Qərarda bildirilir ki, təhsil müəssisələrində pedaqoji fəaliyyətlə məşğul olan, ali və orta ixtisas təhsilinə malik təhsilverənlər peşəkarlıq səviyyələrinin və peşə yararlılıqlarının yoxlanılması məqsədilə 5 ildə bir dəfə ödənişsiz sertifikatlaşdırmadan keçməlidirlər. Sertifikatlaşdırmaya cəlb olunmuş şəxslərə onların fəaliyyət sahəsinə bilavasitə aid olmayan sualların verilməsi, habelə onların siyasi baxışlarına və dini etiqadına görə qiymətləndirilməsi yolverilməzdir. Təhsilverənlərin karyera inkişafında və əməyinin stimullaşdırılmasında nəzərə alınacaq sertifikatlaşdırma iki – test və müsahibə mərhələsindən ibarət olmaqla keçirilir. Biz də fürsətdən istifadə edərək test imtahanında iştirak etmiş və imtahanda iştirak etməyə hazırlaşan müəllimlərin bir neçəsi ilə söhbətləşdik:

***Naibə Əliyeva – Heydər Əliyev adına tam orta məktəbin ibtidai sinif müəllimi:*** – Muxtar respublikamızda digər sahələrin inkişafı ilə yanaşı, təhsil sahəsində də qazandığımız uğurlar qürurvericidir. Ali Məclisin Sədri cənab Vasif Talıbovun altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin dördüncü sessiyasındakı məruzəsində də vurğuladığı kimi, ötən tədris ilində qəbul imtahanlarında iştirak edən abituriyentlərdən 2381-i ali və orta ixtisas məktəblərinin tələbəsi adını qazanmışdır. Ali məktəblərə qəbul olanlardan 1108-i ixtisas seçimi zamanı muxtar respublikanın ali təhsil müəssisələrinə üstünlük vermişdir. Qəbul imtahanlarının nəticələrinə əsasən 275 nəfər 500-dən yuxarı bal toplamış, onlardan 4-ü Prezident təqaüdünə layiq görülmüşdür. Sürətli internetə çıxışı olan 5700-dən artıq kompüter və 650-dən çox elektron lövhə quraşdırılmış, laboratoriyalar və fənn kabinələri, 600 mindən çox latın qrafikası ilə nəşr olunmuş bədii ədəbiyyatla təmin edilmiş məktəblərdə təhsil alan şagirdlərin qəbul imtahanlarında yüksək nəticə əldə etmələri, əlbəttə, bu səbəbdəndir. Bu gün istər şəhər, istər kənd məktəblərində müasir tədris imkanlarının yaradılması hər birimizin gözü qarşısındadır. Fəaliyyət göstərdiyim tam orta məktəbdə də hər cür şərait yaradılıb. Bu da, öz növbəsində, biz müəllimləri daha yaxşı işləməyə, gələcəyin əsl vətənpərvər gənclərini yetişdirməyə ruhlandırır. Nazirlər Kabinetinin qərarı ilə təşkil edilən müəllimlərin sertifikatlaşdırma test imtahanı isə bizi çox sevindirir. Mən də ibtidai sinif müəllimi olaraq keçirilən imtahanda iştirak etdim. Qarşıya qoyulmuş test suallarının hər birinə düzgün cavab verməklə biliyimi daha da möhkəmləndirdiyimə əmin oldum. 120 dəqiqə vaxt ayrılan test mərhələsi elektron qaydada həyata keçirildi. Bu mərhələdə hər bir düzgün cavab 1 balla qiymətləndirildi. Səhv cavablar düzgün cavablara təsir göstərmir. Test mərhələsi başa çatdıqdan dərhal sonra nəticə elan edilərək "Test imtahanının nəticəsi haqqında arayış" verildi. Qarşıda müsahibə mərhələsini gözləyirik. Təhsil verənlərin biliyinin daha da möhkəmləndirilməsi üçün atılan bu addım təqdirəlayiqdir.

***Elmira Hüseynli – Naxçıvan Qızlar Liseyində Kimya müəllimi:*** – Xalqın tərəqqisi məktəbdən, məktəbin tərəqqisi isə müəllimdən başlayır. Məhz buna görə də təhsilə, təhsil işçilərinə muxtar respublikamızda yüksək qayğı göstərilir. Nə xoşbəxtik ki, bu diyarda yaşayıb, bu diyarda müəllim adını qazanmaq bizə nəsib olub. 1995-ci ildən etibarən digər sahələrlə yanaşı, təhsilimiz də özünün inkişaf mərhələsinə qədəm qoymuşdur. Kimya fənnini tədris etdiyim Qızlar Liseyində də işıqlı sinif otaqları, müasir avadanlıqlarla təchiz edilmiş fənn laboratoriyaları, kompüterlər və elektron lövhələr quraşdırılmış sinif otaqları, zəngin fonda malik kitabxanalar, laboratoriyalar biz müəllimlərin istifadəsinə verilib. Təhsilin inkişafı istiqamətində görülən məqsədyönlü tədbirlər təhsilin keyfiyyətini daha da yüksəldir, bacarıqlı, savadlı, hərtərəfli dünyagörüşə malik gənclər yetişməsinə stimul verir.



*Sonda onu da qeyd edək ki, muxtar respublikamızda müəllimlərin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində də məqsədyönlü tədbirlər həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamlarına əsasən bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin həftəlik dərs yükü 1,5, vəzifə maaşı 2 dəfə, 2019-cu il sentyabrın 1-dən isə bu kateqoriyadan olan müəllimlərin aylıq vəzifə maaşları əlavə olaraq orta hesabla 20 faiz artırılmışdır. Bu istiqamətdə həyata keçirilən tədbirlər müəllimlərin rifahı ilə yanaşı, nüfuzunu da artırmış, təhsilin keyfiyyətinin daha da yüksəlməsinə səbəb olmuşdur.*

**Nuray ƏSGƏROVA**

**_Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında” 2009-cu il 7 fevral tarixli Sərəncamı muxtar respublikada xalq yaradıcılığının yaşadılması, milli dəyərlərin qorunması, təbliği və gələcək nəsillərə çatdırılması işində mühüm əhəmiyyət kəsb edir. Bu istiqamətdə həyata keçirilən tədbirlər nəticəsində dekorativ-tətbiqi sənət növləri, eləcə də şəbəkə sənəti də yaşadılır, gələcək nəsillərə ötürülür._**

*Milli dəyərlərimizi öyrənək və yaşadaq*

# Naxçıvan memarlığında şəbəkə sənəti

Bu sənət növü haqqında Naxçıvan Muxtar Respublikası Memarlar Birliyinin sədri Heydər Əhmədovla həmsöhbət olduq. O bildirdi ki, Azərbaycan memarlığının ayrılmaz tərkib hissəsi olan, ta qədim zamanlardan başlayaraq bu günümüzə qədər gəlib çatmış sənət növlərindən biri də şəbəkə sənətidir. Nəsildən-nəslə keçərək qorunub saxlanılan bu sənət yaradıcı təxəyyül nəticəsində ərsəyə gələn memarlıq sənəti hesab edilir. Şəbəkə, əsasən, ağacdan, daşdan, metaldan düzəldilmiş hörgü, barmaqlıq, ornament kimi izah edilir. Şəbəkə sənətində həndəsi və təbiət ornamentlərinə daha çox üstünlük verilir. Həndəsi fiqurlar formasında yığılan şəbəkə parçaları əlvan rəngli şüşələrlə bəzədilir. Cəfəri, səkkiz, on altı, gülabi, şəmsi, göllü və bəndi-rumi şəbəkə sənətinin müxtəlif növləridir. Şəbəkələrdən dekorativ-tətbiqi sənətin ən gözəl nümunələri kimi istifadə edilir. Qədim diyarımızda bir sıra tarixi-memarlıq nümunələrində, o cümlədən Xan sarayı, Ordubad şəhərindəki Qeysəriyyə tarixi abidəsi və Came məscidində şəbəkə ənənələrinin yaşadıldığını görmək mümkündür.



Hazırda bu işlə məşğul olan, onun inkişafına və yayılmasına xidmət edən şəbəkə ustaları, memarlar var. Belə sənətkarlardan biri də Ordubad rayon sakini Cabir Cabbarovdur. 30 ildən çoxdur, bu işlə məşğul olan şəbəkə ustası bildirdi ki, ərəb dilindən tərcümədə tor, qəfəs mənasını ifadə edən bu sənət sahəsi çətin olmaqla yanaşı, həm də maraqlıdır. Xalq sənəti nümunələri içərisində öz yerini qoruyub saxlayan şəbəkə sənəti ilk dəfə Naxçıvanda yaranıb. İranın Marağa şəhərində XI əsrə aid rombşəkilli sadə formada işlənən şəbəkə nümunələri olduğu deyilsə də, bu iddia sonralar öz təsdiqini tapmayıb. XII əsrdə həndəsə və riyaziyyat elmlərinin daha da inkişafı nəticəsində öyrənilən elmi bilik və vərdişlər memarlıq nümunələrinə tətbiq olunmağa başlandı. Bu dövrdə geniş riyazi biliyə və zəngin yaradıcılıq təcrübəsinə malik Naxçıvan memarlıq məktəbinin banisi Əcəmi Naxçıvaninin əsasını qoyduğu memarlıq əsərlərində şəbəkə sənətinin izləri göründü. Rombşəkilli, 6-8-10 həndəsi bucaqlar formasında yığılan şəbəkə nümunələri yaranmağa başladı. Əcəmi şəbəkə formaları tezliklə İranın Marağa, Zəncan, İsfahan şəhərlərinə yayıldı. XIII-XIV əsrlərdə isə Səmərqənd, Buxara şəhərlərində inşa edilən bir çox abidələrdə bu şəbəkə forması işlədilməyə başlandı. Hindistanda dünyanın yeddi möcüzəsindən biri olan Tac Mahalın tikintisində, eləcə də Türkiyədə Sultan Əhməd məscidi, Memar Sinanın İstanbulda tikdiyi bəzi məscid və türbələrdə Əcəmi şəbəkələrinin izləri göründü. XIII əsrə aid olan Şərq memarlığının inciləri Qarabağlar və Gülüstan türbələrində şəbəkəçilik üslubu həndəsi formalı yazılarda özünü göstərdi. IX-XI əsrlərin memarlığında isə daha çox kərpic və daşdan işlənən şəbəkə formaları üstünlük təşkil edirdi.

Müsahibim deyir ki, qədimdə ağacişləmə sənətində şəbəkəçilik geniş yer tutub. Naxçıvan ərazisindəki bir sıra tarixi abidələrin inşasında ağacişləmə sənətinin şəbəkəçilik üslubundan biri olan – taxta şəbəkə geniş istifadə edilib. Bu üsula Naxçıvan şəhərindəki Came məscidində, Bəhruz Kəngərli Muzeyində, Hüseyn Cavidin ev-muzeyində, İmamzadə kompleksində, Ordubad şəhərindəki Ambaras məscidində və XVII əsrə aid olan Qeysəriyyə memarlıq abidəsində digər tarixi-memarlıq abidələrində rast gəlinir.

XII əsrdən etibarən zərgərlik və misgərlik məmulatlarının hazırlanmasında istifadə edilən üsullardan biri də şəbəkə olub. Xəncər, qılınc, boyunbağı, sırğa, digər bəzək əşyaları, ağac və əl ilə düzəldilən bədii sənət nümunələrində şəbəkənin müxtəlif növlərindən istifadə edilib. Qədim şəbəkə üsullarından biri də gəc üzərində oyma olub. Bu cür şəbəkələr qədim evlərdə sobaların səthinə vurularaq onların görünüşünə fərqlilik qatıb.

Müsahibim qeyd etdi ki, hazırda Ordubad şəhərində yerləşən Qeysəriyyə tarixi abidəsinin, Cümə, Dilbər, Mingis və digər məhəllə məscidlərinin, Vənənd, Nüsnüs kənd məscidlərinin, eləcə də XVIII-XIX əsrlərə aid Ordubad hamamının pəncərələrində şəbəkə sənətinin izlərini görürük. Qədimdə bütün binalarda şəbəkə formalı pəncərələr tut ağacından düzəldilirdi. Bu ağac suyadözümlü, bərk və xüsusi çəkisi yüngül olduğu üçün daha keyfiyyətli hesab edilirdi. Tut ağacı möhkəm olub mismar keçirmədiyi üçün ağacda deşik açıb bir-birinə keçirmə üsulundan istifadə ediblər ki, şəbəkə tez başa gəlsin. Bu cür şəbəkə növlərinə 200 il yaşı olan şəxsi evlərin aynabənd və eyvanlarının pəncərələrində rast gəlmək olar. Təəssüf ki, indi onların bir çoxu sıradan çıxıb. Daha sonra ağac şəbəkəsinin dəmir barmaqlıqlarla əvəz olunması şəbəkənin bu növünü yavaş-yavaş sıradan çıxardı. Ordubad şəhərində bir sıra evlərin qapı və darvazalarının başlarındakı dəmir barmaqlıqlar Xətai, həndəsi və nəbati formalı naxışlar işlənən şəbəkə nümunələri hələ də qalır.



Müxtəlif formalı şəbəkə nümunələri hazırlayan Cabir usta vurğuladı ki, son zamanlarda üzərində işlədiyi məscidlərin pəncərələrində yeni şəbəkə növlərindən istifadə edib. Əvvəllər məscidlərin pəncərələri düzxətli, 6-8 bucaqlı Əcəmi şəbəkə üslubunda olub. Ordubadın Sərşəhər məscidinin pəncərələri bu üslubla düzəldilib, Möminə xatın türbəsinin səthi, eləcə də aynabənd, eyvan və məscidlərin bir neçəsinin səthi sadə, nəbati, kaşı formalı naxışlarla bəzədilib. Hazırda mən 6-8-10 bucaqlı, yanlarından paralel xətlər keçməklə yaradılan şəbəkə növündən, taxta üçün isə suyadözümlü və möhkəm sənubər ağacından istifadə edirəm. Bu ağacdan hazırlanan şəbəkə anidən baş verən təbii fəlakətlərə, xüsusilə də zəlzələyə qarşı möhkəmdir. Ordubadın Nüsnüs kəndində yerləşən “Qırx kimsənə” adlı pirin qapı və pəncərələrini oyma və şəbəkə formasında düzəltmişəm. Şəbəkə üzərinə isə Allah, imam və peyğəmbərlərimizin adını kufi xətti ilə, həndəsi bucaqlar şəklində salmışam. Bu da şəbəkə sənətində islami dəyərlərimizin qorunub yaşadıldığına bir nümunədir.

Onu da qeyd edək ki, Cabir Cabbarov 2015-ci il 3 noyabr tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən xalq yaradıcılığının inkişafındakı səmərəli fəaliyyəti nəzərə alınaraq “Rəşadətli əməyə görə” nişanı ilə təltif edilib.

**_Xalq yaradıcılığına məxsus olan digər sənət nümunələri kimi, şəbəkə sənətini qoruyub yaşatmaq gənc nəslin üzərinə düşür. Odur ki, hər bir gənc məşğul olduğu peşə növlərindən başqa, bu sənəti də təbliğ etməlidir._**

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

# Xidmətin rəsmi sosial şəbəkə hesabları istifadəyə verilib

Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidməti insanların daha çox sosial şəbəkələrdən informasiya mənbəyi kimi istifadəsini nəzərə alaraq onların rahatlığını və məmnuniyyətini təmin etmək, müraciətlərini operativ cavablandırmaq, habelə xidmətə müraciətetmə imkanlarını genişləndirmək məqsədilə həm “Facebook” *(Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidməti)*, həm də “Instagram” *(nmr_miqrasiya_xidmeti)* səhifələrini ictimaiyyətin istifadəsinə verib.



Səhifələrin yaradılmasında əsas məqsəd sosial şəbəkələrin imkanlarından istifadə olunmaqla Dövlət Miqrasiya Xidmətinin fəaliyyəti barədə məlumatlandırma və maarifləndirilmə işini təşkil etmək, ictimaiyyətin xidmətin fəaliyyəti ilə əlaqədar istədiyi məlumatın sərbəst, maneəsiz və hamı üçün bərabər şərtlərlə qanunla müəyyən edilmiş qaydada əldə olunmasını təmin etmək, habelə ölkə vətəndaşlarının, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin suallarını operativ cavablandırmaq və müraciətlərini qəbul etməkdir.

Qeyd edək ki, həm “Facebook”, həm də “Instagram” sosial şəbəkəsindən xidmətin rəsmi internet səhifəsi olan *miqrasiya.nakhchivan.az* saytına keçid də təmin edilmişdir. Sosial şəbəkə istifadəçiləri vaxt itkisinə yol vermədən Dövlət Miqrasiya Xidmətinin fəaliyyəti ilə əlaqədar operativ olaraq müraciətlər göndərməklə yanaşı, görülən işlərlə, hüquqi maarifləndirmə mövzularında məlumatlarla da daha yaxından tanış ola bilərlər.

Əminliklə deyə bilərik ki, bu gün Dövlət Miqrasiya Xidmətinin elektron xidmətləri bütün sahələr üzrə tam gücü ilə fəaliyyət göstərir. Elektron xidmətlərin göstərilməsində “202 – Miqrasiya Məlumat Mərkəzi”nin də xüsusi rolu vardır. Ölkə vətəndaşları, habelə əcnəbilər və vətəndaşlığı olmayan şəxslər “202 – Miqrasiya Məlumat Mərkəzi”nə zəng edərək miqrasiya sahəsini əhatə edən istənilən sualı rahatlıqla ünvanlaya bilərlər.

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin mətbuat xidməti***

# Astmanın dərmanı: şam qozasının doşabı

*Muxtar respublikamızda yaradılan münbit şəraitdən, yurdumuzun təmiz havasından, saf suyundan bərəkətli torpaqlarından yararlanan kənd adamları öz ailə təsərrüfatlarını qurur, sahibkara çevrilirlər. Onlar öz təsərrüfatlarında əkib-becərdikləri məhsulları bazarlarda sataraq qazanc əldə etməklə yanaşı, müxtəlif sahələrdə axtarışlara çıxır, yeni-yeni məhsullar istehsal edirlər. Belə kiçik sahibkarlıq fəaliyyəti ilə məşğul olanlardan biri də Sədərək rayon sakini Mehbarə Hüseynovadır.*





Hər görüşümüzdə onun və ətrafına topladıqları qadınların əl işlərinə baxdıqca mütləq yeni bir iş görürük. Bu nemətlərin arasında qədim yemək növümüz olan qaysavadan tutmuş müxtəlif növ qovurmalardan xaşa kimi hər cür qidaya rast gəlmək mümkündür. Yaxın günlərdə Mehbarə Hüseynova ilə görüşümüzdə yeni növ doşab hazırladığını görür və həmin doşabın necə ərsəyə gəldiyini öyrənirik. Mehbarə xanım deyir ki, bir neçə elmi ədəbiyyatdan haqqında məlumat topladığım, əksəriyyətimizin əyləncə, bəzək əşyası kimi baxdığı şam ağacı qozası, əslində, sağlamlıq üçün çox faydalıdır. Öyrəndiyimə görə, təzə şam ağacı qozaları hələ qədim zamanlardan astma, bronxit, soyuqdəymə, oynaq xəstəlikləri zamanı geniş istifadə olunur. Şam qozasının tərkibindəki maddələr orqanizmə iltihab və mikrob əleyhinə təsir edir, immun sistemini gücləndirir. Bundan əlavə, şam ağacının qozalarında çox nadir və qiymətli tannin maddələri var ki, onlar insult zamanı beyin hüceyrələrinin ölməsini xeyli ləngidir. Şam qozaları dəmləmə şəklində istifadə olunur, ondan doşab da hazırlanır.

Bildirir ki, elə bütün bu faydalarını öyrəndikdən sonra ondan doşab hazırlamaq qərarına gəldim. Müsahibim onu da deyir ki, şam qozalarının, əsasən, may ayının sonunda, təzə-təzə yığılması məsləhətdir. Qozalar təmiz yuyulur, dörd yerə bölünür. Üzərinə çıxana qədər qaynar su tökülür və 10 saat ağzı bağlı saxlanılır. Sonra qaynadılır, yenə 10 saat soyudulur. Bu proses 3 dəfə təkrarlanır. Sonda qozaların yığıldığını görəcəksiniz. Qozaları sudan çıxarıb atıb, suyuna uyğun – 1 litrə 1 kiloqram şəkər tozu əlavə edir, təxminən, bir saat bişiririk. Yəni bunun ancaq suyu bəkməz kimi istifadə olunur. Bu dərman qədər təsirli olduğundan gün ərzində, sadəcə, 1-2 qaşıq çaya, suya əlavə edib içmək olar. Şam qozasının doşabı qış fəslində, xüsusilə tez-tez rastlaşdığımız yuxarı tənəffüs yolları xəstəliklərinin müalicəsində, ciyərlər, bronxlar üçün olduqca faydalıdır, hətta astma xəstəliyini müalicə edir. Gündə üç dəfə yeməkdən əvvəl bir stəkan içilir. Bu tərkibin varikoz və daxili göbələk əleyhinə müalicəvi təsiri də vardır. Və yaxud qozalardan özünüz sirkə də hazırlaya bilərsiniz. Bu, daha faydalıdır.

Öyrəndik ki, sahibkarlıq fəaliyyəti ilə məşğul olan Mehbarə xanımın ötən ilin yazından hazırlamağa başladığı bu doşab xeyli alıcı da toplayıb. Ailə təsərrüfatı yarmarkasında maraqdoğuran məhsullardan biri də şam qozası doşabı olub.

**✍ Ramiyyə ƏKBƏROVA**

***İtmişdir***

Babək rayonu, Badaşqan kəndində yaşamış Hüseynov Yusif Abdulla oğlunun adına olan 18A inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Kəngərli rayon Çalxanqala kənd tam orta məktəbinə məxsus 000431 nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 99